# XX əsrin ən böyük faciəsi

## Xocalı faciəsi yad olunmuşdur

Heydər Əliyev Mərkəzində şəhər 3 nömrəli məktəbin müəllim və şagird kollektivinin iştirakı ilə Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar tədbir təşkil olunmuşdur.

Çıxış edənlər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri tərəfindən Xocalıda törədilən soyqırımı barədə ətraflı danışmışlar.

Diqqətə çatdırılmışdır ki, insanlığa qarşı yönəlmiş bu cinayətə siyasi və hüquqi qiymət yalnız ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilmişdir. 1994-cü ildə Milli Məclisin qərarı ilə 26 fevral Xocalı soyqırımı və milli matəm günü elan edilmişdir.

Sonda məktəblilərin ifasında Xocalı faciəsinə həsr olunmuş bədii kompozisiya nümayiş olunmuşdur.

**Mahirə KƏRİMOVA,**
**mərkəzin bələdçisi.**

## Kövrək duyğular yaradıb

İsmayıl bəy Qutqaşınlının ev muzeyində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə Xocalı şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin müdiri Çimnaz Müzəffərova giriş nitqində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələrinin rus ordusunun 366-cı motoatıcı alayı ilə birlikdə Xocalı şəhərini yerləyeksan etdiyini bildirib. O, qəhrəman vətən oğullarının- Əlif Hacıyevin, Allahverdi Bağırovun, Tofiq Hüseynovun və digərlərinin Xocalının müdafiəsində göstərdiyi şücaətdən söhbət açıb.




Tədbirdə müharibə veteranı Şirin Abdulkərimov, şəhər sakini Fərman Əzizli, Rəna Mahmudova və başqaları çıxış ediblər.

Yerli yazarlardan Şəhla Xəlilqızı, Gülxar Vəfalı, Rəciyyə Şirinova və digərləri Xocalıya ithaf etdikləri şeirlərini oxuyublar.

Jurnalist Bibixanım İsayeva Xocalıdan qaçqın düşən ailələrlə görüş təəssüratlarından danışıb.

İncəsənət məktəbinin müəllimi Gülnarə Hacıyevanın ifa etdiyi bədii qiraət tədbir iştirakçılarında kövrək duyğular yaradıb.

Tədbir şəhər 2 nömrəli məktəbin şagirdləri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

**Nurlanə VEYSƏLOVA,**
**muzeyin işçisi.**

## Qan yaddaşımız– Xocalı faciəsi

Azərbaycan xalqı tarixən erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Xocalı soyqırımı bunların ən dəhşətlilərindən biridir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımı ilə bağlı xalqa müraciətində qeyd etmişdir: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri- insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Xocalı faciəsinin il dönümü ilə bağlı hər il olduğu kimi bu ildə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin akt zalında geniş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Mərkəzin direktoru Eyvaz Kazımov açmışdır.

Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Eyvaz Kazımov Xocalı faciəsi ilə bağlı geniş məruzə edərək bildirmişdir ki Xocalı qətliamı XX əsrdə insanlığa qarşı törədilmiş ən böyük faciədir. Gənc nəsil bilməlidir ki, bu gün qüdrətli və güclü bir dövlətə çevrilən Azərbaycan əzəli və əbədi torpaqlarının heç bir qarışını da güzəştə getməyəcək.

Tədris mərkəzinin müəllimi İlham Əfəndiyev çıxışında bildirib ki, bu gün gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi, tariximizin dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki hərtərəfli bilikli gənclərin səyi nəticəsində vaxtilə Xocalı soyqırımına biganə yanaşan dünya ictimaiyyəti bu gün artıq Xocalı genosidinin baş verməsi ilə bağlı bəyannamələr qəbul edir, onu pisləyir. Hər il dünyanın müxtəlif ölkələrində Azərbaycan gənclərinin səyi və fəaliyyəti əsasında Xocalı soyqırımını tanıtmaq məqsədilə geniş miqyaslı yürüşlər, mitinqlər keçirilir. O, çıxışının sonunda bildirib ki, Xocalı faciəsini unutmaq–öz tarixini unutmaq deməkdir. Xüsusilə gələcəyimiz olan gənclərimiz xalqımıza qarşı törədilən cinayətləri unutmamalıdırlar. Vətənin keşiyində ayıq sayiq durmaq, vətəni layiqincə təmsil etmək hər bir gəncin borcudur.

Tədbir Xocalı faciəsi ilə bağlı şagirdlərin hazırladığı kompozisiya ilə davam etdirilib.

**Vüsalə QƏRİBOVA,**
**mərkəzin müəllimi.**

## İngilis dilində

Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində vaxtaşırı olaraq müxtəlif fənlərə dair viktorinalar, bilik yarışları, "gecələr" keçirilir. Bu yaxınlarda məktəbdə keçirilən Xocalı soyqırımına həsr olunmuş "ingilis dili gecəsi" də yaddaqalan tədbir oldu.




Tədbir iştirakçıları öncə Xocalı şəhərində qətlə yetirilən soydaşlarımızın, bütün şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Şagirdlər ingilis dilində Xocalı faciəsinə aid kompozisiya nümayiş etdirdilər, vətənə, anaya, şəhidlərə, Xocalı soyqırımına həsr olunmuş şeirlər söylədilər, ingilis dili üzrə sualları cavablandırdılar. Şagirdlərin fəallığı göstərdi ki, onların ingilis dili fəninə maraqları çoxdur.

Yekunda rayon təhsil şöbəsinin işçisi Şükufə Cavadova və məktəbin direktoru Təranə Səlimova tədbirin hazırlanmasında rolu olan ingilis dili müəllimlərinə təşəkkür etdilər.

**Samirə SƏMƏDOVA,**
**məktəbin ingilis dili müəllimi.**

## Xocalı soyqırımına həsr olunmuş tədbir

Rayon tarix-diyarşünaslıq muzeyində Xocalı soyqırımının 27-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Qəbələdə məskunlaşan xocalılar və peşə təhsili mərkəzinin tələbələri iştirak ediblər.



Əvvəlcə tədbir iştirakçıları muzeyin əməkdaşları tərəfindən hazırlanan və həmin qanlı hadisələri əks etdirən "Xocalının harayı" adlı sərgiyə baxıblar.

Rəsmi hissədə çıxış edənlər Xocalı faciəsinin dəhşətlərindən, erməni vandallarının silahsız xalqa qarşı amansızlıqla törətdikləri qəddarlıqdan və vəhşilikdən ətraflı danışıblar.

Qətliamın canlı şahidləri olan Xocalı sakinləri həmin gecənin faciələrini göz yaşları ilə xatırlayaraq, itkin düşən əzizlərini hələ də axtardıqlarını bildiriblər.

Yekunda iştirakçılara Xocalı faciəsinə həsr edilmiş bukletlər paylanılıb.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**

## Turnirə yekun vurulub

Qəbələ Olimpiya İdman Kompleksində rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə kişilər arasında Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş stolüstü tennis üzrə turnirə yekun vurulub.



Turnirin açılış mərasimində çıxış edən rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov Xocalı faciəsinin iki yüz ilə yaxın bir müddətdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olduğunu bildirib.

Xatirə turnirində rayonun idarə və müəssisələrində çalışan 20 nəfər tennisçi iştirak edib.

Yarışda Ramiz Mirkamalov turnirin qalibi adını qazanıb. Sonrakı yerləri Rübail Qarayev və Əli Hacıyev tutublar.

Turnirin qalibləri kubok və diplomlarla mükafatlandırılıblar.

**"Qəbələ"**